## *ENDİRMƏYƏ HAQQIMIZ YOX*

Dünyada nə var
Tanrımın adınadır.
Ta torpaqdan havaya,
Ta sudan oda kimi.
Tanrının adınadır.
Ta zərrə yozması yox,
Amma bayatı kimi,
Heç birinin altında
Onun imzası da yox.

Dünyada nə var,
Tən bölünüb dünyanın yiyəsi
Yaratdıqlarının adına:
Çiçək baharın adına,
Bal arının adına...

Arıya təzə ad verməzlər,
Bahara təzə ad qoymazlar –
Tanrı deyir.
Deyir, göyün göy adına qoymazlar,
Adından adlanılan
Bir də addamazlar yolu...

Bu qış
Odlar yurdunun Kərəm vədəsi
Qan didərgin atəşinə-oduna,
Gündüzlərimiz sənin adına,
Gecələrimiz sənin adına,
Bu bahar
Küçələrimiz sənin adına olacaq.

Adına olacaq küçələrimizin sağı-solu.
Hələ neçə-neçə gələn bahara
Qalacaq neçəsi,
Haçansa sənin adına olacaq,
Hələ bir qara gözəlləmədir
Şuşanın baş küçəsi...
Onda –
Açılanda tarixin qıfılı
Açılanda üzümüzə
Daşaltı, Xocalı, Xankəndi...
Unudanda yoxluğumuzu,
Görəndə biz varıq,
Bir-bir Heydər bağı salarıq...

Bu yurddan
Tanrının da adına olmayan
Arısını çıxanda,
Baharına göyünü, yolunu ayıranda,
Yerində nə qalırsa,
Bu yurdda
İnsan eşqinin məhvərində nə varsa,
Sənin adınadır.
Sənin adınadır xofsuz həyatımız.
Buxovsuz muradımız...
İnnən belə endirməyə,
Haqqımız yox,
Sənin adınadır adımız.

***Arif Fərzəli***

***Günəşə qovuşmaq istəyirəm mən! – B.: Çinar-Çap, 2008. – S.52-54.***